

Qadınlarımızın bayramı-
xalqımızın, cəmiyyətin,
ölkəmizin bayramıdır.

Heydər Əliyev

# Xanımlarımızın bayramı

Qadın günü hələ qədim Roma imperiyasında mövcud olmuşdur. Həmin gün matronlar adlanan azad Roma qadınları üçün bayram günü hesab olunurdu. Hətta qul qadınlara da həmin gün istirahət verilirdi.

Türk etnoslarında Azərbaycanda-Oğuz ellərində qadın, ana müqəddəs sayılmış, ona böyük ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdur.

1857-ci il martın 8-də Nyu-York toxucuları şəhərin küçələrində yürüş edərək, aşağı əmək haqqı və pis iş şəraitinə qarşı çıxış etdilər. 1908-ci ildə Amerika Sosialist Partiyası fevralın sonuncu bazar gününü Milli Qadın Günü elan etdi. 1910-cu ildə qadınların Kopenhagendə keçirilmiş beynəlxalq konfransında Klara Setkinin təşəbbüsü ilə Nyu-York hadisələrini yad etmək məqsədilə 8 martın Beynəlxalq Qadınlar Günü kimi qeyd edilməsi qərara alındı. O vaxtdan etibarən dünyanın bir çox ölkələrində 8 Mart Beynəlxalq Qadınlar Günü kimi bayram edilir. Azərbaycan Respublikasında da 8 Mart Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Həmin gün qeyri-iş günüdür.

Bu bayram ilk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə və Danimarkada qeyd olunmuşdu. 1914-cü ilə qədər bu bayram müxtəlif ölkələrdə mart ayının ayrı-ayrı günlərində qeyd olunurdu. 1914-cü ildən isə Avstriya, Macarıstan, Niderland, Rusiya, ABŞ, İsveçrə və digər ölkələrdə qadınlar günü məhz martın 8-də qeyd olunmağa başladı.

İlk dəfə seçki hüququ qazanan ingilis qadınları oldular.

Rusiyada 1913-cü ildən, Azərbaycanda isə 1917-ci ildən qeyd edilmişdir.

İkinci Dünya müharibəsindən sonra qadınlarla kişilərin hüquq bərabərliyi BMT-nin Nizamnaməsində təsbit olunmaqla beynəlxalq hüquqi normaya çevrildi. 1948-ci ildə İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə cinsi bərabərlik bir daha əsaslandırıldı.

Lakin bu bəyannamə qadınların həyatına nəzərə çarpacaq bir dəyişiklik gətirmədiyi üçün BMT Baş məclisi 1967-ci ildə Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Bəyannaməsini qəbul etdi. BMT-yə üzv dövlətlər bəyannamələrin yerinə yetirilməsi ilə bağlı öhdəlik daşımadıqlarından bu bəyannamə də cinslər arasında qarşılıqlı münasibətlərin yeni, daha ədalətli modelini yarada bilmədi. Nəticədə BMT Baş Məclisi 1979-cu ildə "Qadın Konvensiyası" adlı sənəd qəbul etdi...

* * *

Ölkəmizdə 8 milyon 730 min əhalinin 49 faizi kişi, 51 faizi qadındır. Azərbaycan qadınlar və kişilər arasındakı bərabərliyin səviyyəsinə görə, dünyada 61-ci pillədədir. Dünya İqtisadi Forumunun 2008-ci il üçün illik hesabatında bu haqda məlumat verilir.

Azərbaycanda qadınlar əsasən təhsil, səhiyyə, mədəniyyət, qeyri-hökumət sektorlarında daha fəal təmsil olunurlar. 125 millət vəkilindən 14-ü, dövlət qulluğunda çalışanların üçdə biri, təhsil sistemində çalışanların 68,8%-i, səhiyyə sistemində çalışanların 59%-i qadınlardır.

Qadınların dövlət orqanlarında fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2000-ci il martın 6-da "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman verib.

Fərmanda bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbər vəzifələrdə kişilərlə bərabər təmsil olunması, Statistika Komitəsinə qadınlar haqqında geniş məlumatların hazırlanması və yayılması, Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini əsas tutaraq qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılması, qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə qanunlarda dəyişikliklər və əlavələr edilməsi üçün təkliflər irəli sürülməsi kimi tapşırıqlar verilib.

Dünyada dövlət başçılarının 5 faizi qadınlardır. İndi dünyada deputatların cəmi 17-18%-i qadındır, nazirliklərin 16%-ni qadınlar idarə edir. Parlament spikerlərinin 10%-i, dövlət başçılarınınsa 5%-i qadınlardır.

Bir neçə il əvvəl qadın naziri olmayan 19 ölkə vardı. İndi belə ölkələrin sayı azalıb, 13-ə düşüb. Ən çox qadın naziri olan ölkə Finlandiyadır, burada nazirlərin yarıdan çoxu qadındır.

Dünyada cəmi 192 prezident vardır. Onlardan 9-u qadındır.

● S.MEHRƏLİYEVA

# Ağıllar belə deyib...

Günəşsiz güllər çiçək açmaz, məhəbbətsiz
səadət yoxdur, qadınsız məhəbbət yoxdur.
Ana olmasa nə şair olar, nə də qəhrəman!...

M.Qorki

Ananın qəlbinə toxunmaq olmaz,
Ana nəfəsindən çiçək də solmaz.
İnsanlıq süd əmmiş ana döşündən,
Soyuq bir məzardır anasız vətən.

S.Vurğun

Adam özünə dost seçə bilər, arvad seçə
bilər. Lakin ananı seçmək olmaz. Ana birdir.
Onu sevirlər, çünki o anadır.

İ.Erenburq

Anadır həyatın, varlığın canı,
Dünyada anadan əziz şey hanı?!

S.Rüstəm

Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaratmış, mən aləm yaratmışam.

M.Şəhriyar

Sevən qadın qəlbi böyük kobudluğu
asanlıqla bağışladığı halda kiçik
bir vəfasızlığı heç cürə bağışlaya bilməz.

Fransua de - Lapoşfuka

Hər şeydə oğurluq haramdırsa, qızlar
üçün oğlanların qəlbini oğurlamaq halaldır.

M.S.Ordubadi